**Aydan Elburus qızı Həsənzadə** [135]

# QARABAĞ MÜHARİBƏSİ VƏ İNSAN TALEYİ

**Giriş.** İnsanlığın ən böyük faciələrindən biri yüz minlərlə günahsız insanın qanına bais olan, qan və ölümlə nəticələnən müharibələrdir. Müharibələr təkcə döyüş meydanında orduların üz-üzə gəlməsi, torpaqların itirilməsi demək deyil və şəhərlərin, kəndlərin dağıdılması ilə bitmir, o, eyni zamanda insan qəlbində dərin izlər buraxır, sağalmaz yaralar açır. Səbəbindən asılı olmayaraq, hər müharibə bir ananı gözüyaşlı övlad həsrətinə düçar edir, bir uşağı atasız, bir ailəni başsız qoyur. Atılan hər güllə bir insan ömrünü yarımçıq qoyur, minlərlə taleyi alt-üst edir. Müharibə – insan ruhunun ən böyük faciəsidir.

Tarix çox qanlı müharibələrin şahidi olmuşdur. Dünyanın ləngərini pozan müharibələr növünə, xarakterinə, məkanına və zamanına görə bir-birindən çox fərqlənsə də, onların doğurduğu fəsadlar, insan taleyində buraxdığı izlər oxşar, hətta eynidir. Hər müharibədən geriyə onlarla, yüzlərlə yaralı talelər, qırılmış xəyallar, talan olmuş ocaqlar qalır. Tarixən belə olub ki, dünyanın bir gözü gülən də, bir gözü də ağlayıb.

Zamanın belə ağır sınaqlarından biri də vətənimiz Azərbaycanın payına düşmüşdür. İllərdir davam edən, yüzlərlə, minlərlə insanın həyatını məhv edən bu müharibə Azərbaycanın ərazi bütövlüyünə qəsd, qanlı cinayətlərin və insanlığa sığmayan qətliamların tarixidir.

**Əsas hissə.** Zəngin irsimizin və milli kimliyimizin ayrılmaz parçası olan Qarabağ torpaqlarının əsrarəngiz gözəlliyi əsrlər boyu yadellilərin başlıca hədəfi, məkrli niyyətlərini həyata keçirmək istədiyi ilk ünvan olmuşdur.

XX əsrin sonlarından etibarən Ermənistanın Azərbaycana qarşı başladığı işğal siyasəti Qarabağ tarixinin ən qanlı səhifələrindən birini təşkil edir. 1988-ci ildən başlayaraq soydaşlarımız, yüz minlərlə azərbaycanlı dədə-baba torpaqlarından, yurd-yuvasından didərgin düşdü. Bunun ardınca isə yurddaşlarımız 1992-ci ildə fevralın 25-dən 26-na keçən gecə Qarabağa qarşı həyata keçirilən vandalizmin və etnik təmizləmə siyasətinin ən dəhşətli nümunəsi ilə qarşı-qarşıya qaldı. Xocalı soyqırımı Azərbaycan xalqına qarşı törədilmiş ən ağır cinayətlərdən biri, bəlkə də birincisi idi.

Tarixin ən çətin günlərində həmişə xalqın səsi, dayağı, ilk növbədə, onun sözü olmuşdur. Müharibəni ruhunda hiss edən şairlərimiz və yazıçılarımız bədii sözlə onu tarixin yaddaşına köçürməyə nail olublar. Millətin yaşadığı ürək yanğısını, dərdini, kədərini, sevincini ifadə edən və onu gələcək nəsillərə ötürən ən güclü vasitələrdən biri məhz poeziyadır.

Müharibənin ilk günlərindən silah əvəzinə qələmə sarılanlar və Qarabağ işğalından yazanlar arasında Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, Zəlimxan Yaqub və başqa söz ustadları var idi. Qarabağ müharibəsi, Vətən nisgili, torpaq itkisi, yurd dərdi, evindən-eşiyindən ayrı düşən, çadırlarda yaşayan insanların yaralı taleləri bu şairlərin hər birinin yaradıcılığında qırmızı xətlə keçir.

Yurdlarından didərgin düşüb çadırlarda sığınacaq tapan insanların qarşılaşdığı çətinliklər Əziz Musanın "Çadırda yaşamaq" adlanan şeirində poetik dillə ifadə olunmuşdur. Şair həyət-bacası, hasarı olmayan, alçaq tavan və yaş döşəmədən ibarət çadırda insan üçün normal yaşayış mühitinin olmadığını, yaşayış şəraitinin dözülməzliyini göstərir və insanların psixoloji vəziyyəti ilə müqayisə edir. Çadır elə bir yerdir ki, doğma ev-eşiyindən, isti ocağından ayrı düşən, gözlərində kədər, gələcəklə bağlı təlaş, qorxu daşıyan insanlar burada qəriblik çəkir, özünü yalqız, çarəsiz və ümidsiz hiss edir:

*Gülövşə yanaqlar bom-bozdu burda,*
*Dağ boyda kişilər yalqızdı burda.*
*Qayalar ovulmuş bir tozdu burda,*
*Baxışlarda məlal, gözlərdə təlaş*
*Çadırda yaşamaq çətindi, qardaş* [1, s. 80].

Aydın Uluxanlının "Çadır şəhərciyi" adlı şeiri də həmin insanların qarşılaşdığı sıxıntıları və yurd həsrətinin nə qədər ağır olduğunu əks etdirməsi baxımından diqqətəlayiqdir. Boğucu və üzücü çadır şəhərciklərində insanlar mənəvi olaraq sıxıntı içindədirlər. Ümidi yalnız Allaha qalan qaçqınlar burada sanki canlı ölü kimidirlər, onlar həyatdan heç bir zövq almır, ala bilmirlər. Şeir böyük bir insanlıq faciəsinin poetik təsviridir.

Fikrət Qoca "Qaçqın gəlinə" adlı şeirində qaçqın, evi viran, könlü talan qalan bir el qızına müraciət edərək, fiziki və mənəvi ağrılarla yaşadığını diqqətə çatdırır. Yayda insanlar öz istəkləri ilə yaylağa çıxdığı halda, bu qadın öz iradəsi olmadan arana sürgün edilib. Qaçqın gəlin indi yad yerlərdə yaşasa da, xəyalları yenə də azadlığını və rahatlığını tapdığı doğma dağlardadır:

*Yayda yaylağa gedərlər,*
*Səni sürdülər arana.*
*Yayın cırcırama çağı*
*Mən də duz basdım yarana.*
*Xəyalın dağlar qoynunda,*

---

[135] Bakı Dövlət Universiteti, magistrant hsnzadaydan@gmail.com

*Yarpızlı dovğa bulayır.*
*Dağda sənsiz qalan yurdun*
*Axşam qurd olub ulayır.*
*Evi viran qalan bacım,*
*Gözü-könlü talan bacım.*
*Ala gözə bulud qonur,*
*Göz yaşın qəlbinə axır.*
*Sinəni yandırır, yaxır,*
*Yuxarıdan Tanrı baxır,*
*"Yaxan düymələ, düymələ"* [1, s. 93].

Zəlimxan Yaqub "Göyçə dərdi" poemasında millətin göyüm-göyüm göynəyən, sızım-sızım sızıldayan yarasına toxunur, köç-köç olan bir elin yerə-göyə sığışmayan harayını, daşa dəyən arzularını əks etdirir. Ağacını sulayıb, torpağını əkdiyi, istəkli balasıtək qayğısını çəkdiyi, gündə min dəfə başına dolandığı xanimanının, malının-mülkünün dağıdılması öz evinin içində qonaq sayılıb adı didərginə çevrilən soydaşlarımıza ağır gəlir, daim el-obanın həsrəti ilə yaşayır. Ölüsü kəfənsiz, dirisi vətənsiz qalan qaçqınların belə miskin taleyi müəllifi narahat edir, əsər boyu onların haqq səsini bütün dünyaya çatdıra bilmək üçün çırpınır, üsyan edir:

*Göyçə, səndən ayrı düşdüm*
*"Mənim səndə nəyim qaldı!"*
*Qayaların qucağında*
*Səsim qaldı, küyüm qaldı* [3, s. 418].

Şair "Qəriblər" adlı başqa bir şeirində məşhur "Aşıq Qərib" dastanına istinad edərək Qəribin yeddi illik həsrətinin bir müjdəyə çevrildiyini, lakin müasir dövrdə qəriblik yaşayanların tale yükünün daha ağır olduğunu vurğulayır:

*Bu gün qəriblər var, bir günlük yola*
*Qırx ildi əlləşir, yetişə bilmir.*
*Dolanır gözünə yaş dola-dola,*
*Naləsiz, fəryadsız ötüşə bilmir!* [4 ,s. 68].

Şair göstərir ki, Aşıq Qərib Şahsənəm eşqinə yollara düşsə də, uzun müddət qürbətdə qalsa da, onun payına həsrətin yükü az düşmüş, öz vəfalı yarına vaxtında yetişə bilmişdir. Lakin ana həsrəti, yar sorağına üç aylıq yolları üç günə gələn Qəribin əvəzinə göz yaşı içində boğulan, könlü qəm oylağına dönən qaçqınlar bir günlük yola qırx ildi yetişə bilmir ki, bilmir:

*Gözünün yaşında boğulan, axan,*
*Eldən aralanıb gedən yazıqdı.*
*Gözləri həmişə qürbətə baxan,*
***Qəribi çox olan Vətən yazıqdı!*** [4, s. 69].

Fikrimcə, şeirin ən təsirli misralarından biri də elə budur: "Qəribi çox olan Vətən yazıqdır". Şair qürbətdə yaşamağa məcbur edilən, vətəndən uzaq düşən insanların iztirablarını, vətənə qovuşmaq arzusunu və eyni zamanda qəriblərin çox olduğu bir vətənin də nə qədər aciz və kimsəsiz olduğunu poetik sözün qüdrətindən istifadə etməklə təsvir edir.

Gövhər Məcid "Ev çəkməyi sevir qaçqın uşaqlar" başlıqlı şeirində müharibənin və məcburi köçkünlüyün uşaqların dünyasında buraxdığı dərin izləri təsvir edir. Şair qaçqın uşaqların iç dünyasını, onların yurd həsrətini, gen dünyada Vətənsiz qalmağın gətirdiyi iztirabları poetik dillə əks etdirir:

*Alışır əlində fırçası yanır,*
*Kağızdan boylanır yaxın-uzaqlar.*
*Çəkdikcə ömrünün parçası yanır,*
*Ev çəkməyi sevir qaçqın uşaqlar* [1, s. 101].

Şair uşaqların çəkdiyi hər ev rəsminin onların itirdikləri doğma yurdlarına olan bağlılığının ifadəsi olduğunu göstərir. Fırçaları alovlanır, kağız üzərində çəkdikləri evlər onların xəyallarında canlanan doğma ocağın simvoludur. Sanki hər şəkil bir xatirə, bir ümiddir.

Bu şeir qaçqın uşaqların hisslərini dərindən anlamağa kömək edir və müharibələrin insan talelərində, xüsusilə də uşaqların saf dünyasında yaratdığı faciəni qabarıq şəkildə göstərir.

Xocalıda yaşanılan qanlı hadisələr və Qarabağın işğalı ilə insanlar bir daha ağla sığmayan zülmlərin, xəyalda canlandırılması mümkün olmayan acıların şahidi olurlar. Həyatın ən amansız sınaqları ilə üz-üzə qalan bu insanlar ürəkləri titrədən ədalətsizliklərə və insanlığın sərhədlərini aşan haqsızlıqlara boyun əymək, göz yummaq məcburiyyətində qalırlar. Onların hər gün yaşadığı iztirablar bir romanın səhifələrinə sığmayacaq qədər ağır, bir ömrü sarsıdacaq qədər dərindir.

Zəlimxan Yaqubun "Xocalım, ay Xocalım", "Layla, Xocalım, layla", Sabir Rüstəmxanlının "Xocalıdan sonra", Fikrət Qocanın "Hər gecə Xocalıda", Nüsrət Kəsəmənlinin "Xocalı", Əziz Musanın "Qanlı yaddaş" və digər şairlərin bu səpkili şeirləri Xocalı faciəsinin səbəb olduğu müsibətləri, insanların məruz qaldığı zülm və zilləti əks etdirməsi baxımından orijinaldır.

Hacı Seyid Miriş Bərgüşadlının "Xocalı" şeiri də bu baxımdan olduqca dramatik bir əsərdir. Şeirin hər bəndində şair Xocalıda həmin gecə baş verən vəhşilikləri, insanların başına gətirilən min bir əziyyəti şiddətli bir dil ilə ifadə edir və hər misra, demək olar ki, böyük bir insanlıq dramının izlərini daşıyır. Güllələrin, mərmilərin leysantək yağdığı 26 fevral gecəsi avtomatların, topların aramsız səsi, zirehli tankların div vahiməsi insanları dəhşətə gətirir. Silahsız bir millət ayağı yalın, başı açıq şəkildə nəhəng bir ordu ilə vuruşur, ayaqlar altında tapdalanır, namusu, qeyrəti talan olur. Müəllif günahsız insanların necə zəif və müdafiəsiz olduğunu göstərməklə, bərabər olmayan, ədalətsiz müharibələrə olan nifrətini açıq-aşkar ifadə edir. Şairin gözündə bütün bu hadisələr vətəndaşlıq və insanlıq adına böyük və son dərəcə ağır bir faciədir:

*Xocalıda qana qəltan yüz uşaq...*
*Min nəfərdən artıq mülkü şəxs girov,*
*Yüzləri məhv edib boran, qar, qırov!*
*Əlil, şikəstlərin sayısa sonsuz...*
*Soyqırım yaradıb erməni qansız!* [1, s. 106].

İnsanlıqdan kənar əməllərin törədildiyi, dinc əhaliyə amansız hücum edildiyi, qadınların və uşaqların zorakılığa uğradığı, yaşlıların və yaralıların şəhid edildiyi Xocalı faciəsi bəşər tarixinin misli görünməmiş cinayətləri ilə bir səviyyədə dayanır. Bu faciə təkcə Azərbaycan xalqına deyil, dünya miqyasında insanlıq tarixinə unudulmaz bir iz qoymuşdur. Hər bir azərbaycanlı bu acı tarixdən dərs çıxarmalı, Qarabağ həqiqətlərini, millətinin başına gətirilən müsibətləri unutmamalı, xalqının düşmənlərinə kinini və nifrətini hər daim diri tutmalıdır. Sabir Rüstəmxanlının dediyi kimi:

*Asılıb qalmışam vaxt boşluğunda,*
*Daha bu sabahım, o keçmişim yox!*
*Mənim Xocalıdan başqa tarixim,*
*Mənim Xocalıdan başqa işim yox!* [2, s. 209].

**Nəticə.** Qarabağ müharibəsi yalnız Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı mübarizə deyil, həm də insan taleyinin sərhədlərini zorlayan, heç bir zaman unudulmayacaq bir faciədir. Müharibə nəticəsində yaşanan itkilər, qaçqınlıq, həsrət və dəhşətli travmalar təkcə döyüş meydanında deyil, cəmiyyətin hər bir sahəsində dərin izlər buraxmış, insanların həyatını və gələcəyini dəyişdirmişdir. Bütün acılarına baxmayaraq, Qarabağ müharibəsi həm də Azərbaycan millətinin davamlılıq, dözümlülük və qətiyyətini göstərən bir əfsanədir. Tarix sübut etdi ki, bir xalqın mədəniyyətini məhv etmək, torpaqlarını işğal etmək hələ onun kimliyini məhv etmək anlamına gəlmir. Qarabağ torpağı Azərbaycan ruhu ilə yoğrulmuşdu. Xalqımız gec-tez öz tarixi torpaqlarına qovuşacaq və haqq savaşında qalib gələcəkdi. 44 günlük Vətən müharibəsi və qazanılan tarixi qələbə bunun ən böyük sübutu oldu. Qarabağ artıq hər bir azərbaycanlı üçün bir torpaqdan daha çox şəhidlərinin qanı ilə qazandığı Zəfər simvoludur.

**İstifadə edilmiş ədəbiyyat**

1. Karaman E. Qarabağım Qarabağrım. Bakı: Nurlar, 2008, 272 s.
2. Rüstəmxanlı S. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004, 344 s.
3. Yaqub Z. Bir əli torpaqda, bir əli haqda. Bakı: Azərbaycan, 1999, 488 s.
4. Yaqub Z. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı: Şərq-Qərb, 2006, 288 s.

**Açar sözlər:** Qarabağ, müasir Azərbaycan poeziyası, şəhidlik, vətənpərvərlik
**Keywords: Karabakh, contemporary Azerbaijani poetry, martyrdom, patriotism,**
**Ключевые слова:** Победа в Карабахе, современная азербайджанская поэзия, шахидство, патриотизм

**Karabakh war and human destiny**

**Summary**

Throughout history, wars have shaped the fate of nations and states, shaped new borders, and sometimes destroyed entire cultures. While the causes of war vary – territorial claims, political conflicts, economic interests, and ideological differences – the results are always the same: destruction, death, poverty, and human tragedy.

The article examines the deep scars left by the Karabakh war on human life and destiny. The main theme of the article is the suffering caused by the war not only on the battlefield, but also in people's souls, families, and lifestyles. The article reflects the difficult conditions experienced by internally displaced persons, lost lives, broken families, and the pain of people displaced from their native lands.

In addition, the article analyzes how the Karabakh theme is reflected in poetry, literature, and art, and how poets and writers express these pains. It is emphasized that the disasters brought by the war will leave a mark not only on one generation, but also on future generations. The article calls on the reader to deeply understand the realities of Karabakh by confronting both history and human destinies.

Карабахская война и человеческая судьба

**Резюме**

Войны на протяжении всей истории влияли на судьбы наций и государств, образовывали новые границы, а иногда уничтожали целые культуры. Хотя причины войн различаются — земельные претензии, политические конфликты, экономические интересы и идеологические разногласия — результаты всегда одни и те же: разрушения, смерть, бедность и человеческие трагедии.

В статье рассматриваются глубокие следы Карабахской войны на жизни и судьбе человека. Основная тема статьи – страдания, причиненные войной не только на поле боя, но и в душах, семьях и

образе жизни людей. В статье отражены тяжелые условия, в которых живут вынужденные переселенцы, потерянные жизни, разрушенные семьи и боль людей, вынужденных покинуть родную землю.

Кроме того, в статье анализируется, как тема Карабаха отражается в поэзии, литературе и искусстве, как поэты и писатели выражают эти боли. Подчеркивается, что катастрофы, вызванные войной, оставят след в памяти не только одного поколения, но и будущих поколений. Статья призывает читателя глубже понять истину Карабаха, сопоставив историю и человеческие судьбы.

**Rəyçi**: prof. Yeganə İsmayılova